# *Peter MİXALKO:* "Qarabağda davam etməkdə olan bərpa-quruculuq işlərindən çox təsirləndik"



**"Şuşada olmaq çox gözəldir. Bura Azərbaycanın gözəl yerlərindən biridir. Ölkənin bütün ərazisində olduğu kimi, Qarabağa səfərimiz zamanı da bir çox gözəl yerlərin şahidi oluruq. Qarabağda davam etməkdə olan bərpa-quruculuq işlərindən çox təsirləndik".**

Bunu AZƏRTAC-a açıqlamasında diplomatik korpus nümayəndələrinin işğaldan azad edilən Şuşaya səfəri zamanı Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko söyləyib.

"Sakinlərin öz yurdlarına geri qayıtdığını, eyni zamanda tikinti işlərinin davam etdiyini görürük. Avropa İttifaqı regiondakı sülh şəraitinə və minatəmizləmə prosesinə dəstəyini göstərir. Hansı ki, bu proses sakinlərin öz yurdlarına geri qayıtması, onların təhlükəsiz və firavan həyatı üçün ilk vacib məqamlardır", - deyə səfir bildirib.

Azərbaycan. - 2025.-22 iyun (№ 127).- S.4.